MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 76**
**ORCID: 0009-0004-4571-6683**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0285**

**Aynur Sakit qızı Məmmədova**
**Azərbaycan Rəssamlıq Akademiyasının doktorantı**
**aykin.mammadova@mail.ru**

# MÜASİR DÖVR AZƏRBAYCAN RƏNGKARLIĞINDA “ZƏFƏR” MÖVZUSU

**Xülasə.** Məqalə Müasir dövr Azərbaycan rəngkarlığında “zəfər” mövzusuna həsr olunub. Çağdaş dövrümüzdə zəfər mövzusu xalqımızın mübarizə əzmini və qələbə ruhunu nümayiş etdirən ən aktual mövzulardandır. 2020-ci ildə qalibiyyətlə bitən 44 günlük II Qarabağ müharibəsindən sonra qalib ölkəmiz və qəhrəman xalqımızın yaşadığı sevinc hissindən qaynaqlanaraq rəssamlarımız bir-birindən maraqlı və olduqca fərqli forma-biçimdə zəfər ruhiyyəsini daşıyan maraqlı əsərlər yaratmışdır. Sakit Məmmədovun “Qarabağnamə” (2020-2021), Arif Əzizin “Əziz Şuşa, sən azadsan!” (2020), Elşən Hacızadənin “Qələbəmiz” (2020), Vüqar Əlinin “Zəfər” (2020) və “Zəfərin halallığı”. (triptix, 2020), Mir Azər Abdullayevin “Qalib” (2020), Samir Qafarovun “Dəmir yumruq” (2021), İntiqam Cəfərovun “Tarixi zəfərimiz” (2021) və b. əsərlər məhz bu qəbildən olan zəfər mövzulu rəngkarlıq əsərləridir.

**Açar sözlər:** Müasir dövr, Azərbaycan, rəngkarlıq, Qarabağ, zəfər

**Giriş.** Məna-məzmun tutumundan asılı olmayaraq dövrün hadisələrinə bədii görkəm verən rəssamların yaradıcılığında Qarabağ mövzusu bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Müstəqillik illərində xalqın tuş gəldiyi Qarabağ müharibəsinə ayrı-ayrı təsviri sənət ustalarının fərdi münasibətinin baş tutması ilə yanaşı, respublikada bütün yaradıcı qüvvələri bu mövzuya cəlb edəcək bir sıra yerli və beynəlxalq tədbirlər (sərgi-müsabiqə, konfrans, simpozium və s.) keçirilmişdir.

Bu günə qədər baş tutan sərgilərdə nümayiş etdirilən əsərlərin mövzu obyekti faciə, kədər, xalqın ağrı-acısı, həsrət idisə, bu gün Qarabağ mövzulu əsərləri zəfər, sevinc, qürur və fəxarət hissi bürüməkdədir. Təbii ki, bunun başlıca səbəbi şanlı tariximizə qızıl hərflərlə yazılan və xalqımızın qürur mənbəyinə çevrilən 44 günlük II Qarabağ müharibəsində əldə etdiyimiz qalibiyyət – zəfərdir.

**Əsas hissə.** Qələbə sevincini yaşayan xalqımız bu gün də davamlı olaraq şəhidlərimizin əziz xatirəsini ehtiramla anır və eyni zamanda sevinc hissini yaşamaqdadır. II Qarabağ müharibəsinin başlanma tarixindən “Zəfər günü”nə qədər rəssamlarımız da ön və arxa cəbhədə fəal iştirak etmiş, rəşadətli ordumuza maddi-mənəvi dəstəyini nümayiş etdirmişdir. Müharibə sonrası dönəmdə isə “Zəfər günü” münasibətilə Azərbaycan rəssamları zəfər mövzusunda bir-birindən maraqlı və uğurlu əsərlərə imza atıb. Bu mövzuda olan əsərlər özünün məna-məzmun, forma-biçim və janr müxtəlifliyi ilə seçilir. Sakit Məmmədovun “Qarabağnamə” (2020-2021), Arif Əzizin “Əziz Şuşa, sən azadsan!” (2020), Elşən Hacızadənin “Qələbəmiz” (2020), Vüqar Əlinin “Zəfər” (2020) və “Zəfərin halallığı” (2020), Mir Azər Abdullayevin “Qalib” (2020), Samir Qafarovun “Dəmir yumruq” (2021), İntiqam Cəfərovun “Tarixi zəfərimiz” (2021) və b. əsərlər məhz bu qəbildən olan zəfər mövzulu rəngkarlıq əsərləridir.

Müasir dövr Azərbaycan rəngkarlığında zəfər mövzusuna həsr olunmuş ən uğurlu əsərlərdən biri məhz Xalq rəssamı Sakit Məmmədovun “Qarabağnamə” (2020-2021) əsəridir. Çoxfiqurlu kompozisiyadan ibarət olan bu əsər çoxşaxəli, simvolik və zəngin məna-məzmun tutumuna malik unikal bir əsərdir. Rəssam monumental tərzdə həll edilmiş bu əsərdə Qarabağın tarixi, vətənpərvərlik hissi və xalqın mübarizəsini, eyni zamanda onun mədəniyyət nümunələrini kompleks şəkildə bədii görüntüyə gətirib.

Əsərdə çoxsaylı kiçik səhnə və simvollar yer alıb. Hər bir detal fərqli bir tarixə, şəxsiyyətə və ya hadisəyə işarə edir. Bu, əsərin tamaşaçını dərin düşünməyə və araşdırmağa təşviq etməsinə şərait yaradır. Bu baxımdan kompozisiyanı üç hissəyə - yuxarı, orta və aşağı hissələrə bölsək, təsvir olunan fiqur və elementlərin həm məcazi, həm də real zaman kontekstində fərqli məna kəsb etdiyinin fərqinə varmış olarıq.

Müsahibələrinin birində Xalq rəssamı "Qarabağnamə" əsəri haqqında belə qeyd edir: "Bu əsəri təxminən 1 il ərzində ərsəyə gətirdim və bu Qələbəni yaşaya-yaşaya "Qarabağnamə"ni yaratdım. Əsərdə türk dünyasının elementləri var. Burada həm Azərbaycanın, həm də bütün türk dünyasının keçmişi, bu günü və gələcəyi əksini tapır. Dahi Heydər Əliyevin obrazı isə əsərin zirvəsində yer alır. Ulu öndər Heydər Əliyev elə bir böyük siyasi məktəb qoyub getdi ki, bu məktəbdən rəssamlar da bəhrələnirlər" (5).

Kompozisiyanın yuxarı hissəsində üç dairə içərisində – mərkəzdə Azərbaycan Respublikasının Ümummilli lideri, Ulu öndər Heydər Əliyev, onun sağ hissəsində "Dəmir yumruq" tutmuş Müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyev, sol hissəsində isə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın eyni motivli portreti verilib. Siyasi liderlərin portretlərinin bir arada cəm olunması Qarabağın azad olunması ilə əlaqədar müasir Azərbaycanın liderlik fəlsəfəsini və Türkiyə ilə möhkəm qardaşlıq əlaqələrini simvolizə edir. Portretlərin dairəvi formasında təqdim edilməsi siyasi liderlərin gücünün təsir dairəsini və xalq arasında dərin nüfuzunu nümayiş etdirir.

Kompozisiyada təsvir olunan fiqur və detallar simvolik cəhətdən eyni zamanda dini və milli müstəvidə sülh, ümid və mübarizəni təmsil edir. Yuxarı hissədə görünən ay və günəş simvolları xalqın daim yenilənmə, ümid və davamlılıq enerjisini ifadə edir. Sülh göyərçinləri, ağaclar və təbiət motivləri Qarabağın əvvəlki harmoniya dolu həyatını və gələcəkdə sülhə olan ümidini təcəssüm etdirir. Əsərdə Azərbaycan bayrağı və qala təsvirləri Qarabağın zəfərlə əks olunan obrazını, Qarabağın azad edilməsi ilə əlaqədar müasir Azərbaycanın güclü dövlət siyasətini ifadə edir.

Kompozisiyanın mərkəzində at belindəki əlində qılınc tutmuş cəngavər fiquru Qarabağın qəhrəmanlıq və mübarizə ruhunu simvolizə edir. Onun başı üzərindəki Qarabağ atlarının təsviri isə xüsusi olaraq milli kimliyimizi ön plana çəkir. Mərkəzdəki dinamiklik – atların hərəkəti, insan fiqurlarının enerji dolu duruşları – əsərin canlı, emosional və daha təsirli olduğunu nümayiş etdirir. Bunu da qeyd edək ki, at obrazı tarixən azadlığın, gücün və Qarabağ mədəniyyətinin ayrılmaz hissəsidir.

MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025



**Sakit Məmmədov. "Qarabağnamə". 2020-2021.**
**Kətan, yağlı boya. 300x500 sm. Şəxsi kolleksiya.**

Əsərin aşağı hissəsi torpaqla bağlılığı və xalqın ənənələrini əks etdirir. Çoxfiqurlun kompozisiyanın aşağı hissəsində yer almış tarixi şəxsiyyətlərin, milli maddi mədəniyyət nümunələrinin – Qarabağ xalçalarının, milli musiqi alətlərinin, milli geyimlərin və qədim memarlıq abidələri öz növbəsində Qarabağın zəngin tarixi və mədəniyyət irsini simvolizə edir. *“"Qarabağnamə" tablosunda miflər və simvollar eyni vüsətlə iştirak edir. Yəni "Qarabağnamə"də 3000 ildir ki, Qarabağı özlərinə Vətən qılmış prototürklərin izlərini yaşadan balballar da, iskit pazırıq elementləri də var. Balbaldan, pazırıq ilmələrindən yola çıxsaq, bizi bütün oğuz boyları, o sıradan hunlar, göytürklər, səlcuqlular, qızılbaşlar müşayiət edəcək. Onları isə saysız elementlər - Boz Qurd, Qızılbaş miniatür üslubu, bədii tikmə üzərindən tabloya köçmüş süvari, səlcuqlu memarlığının zərifliyi və harmoniyası, Üzeyir bəy, Mirmöhsün Nəvvab, türk*

*gücünü simvolizə edən Şahbulaq qalası, yaxud Əsgəran qalasından ucalan Dəmir Yumruq izləyəcək" (Azər Turan, 2021).*

"Qarabağnamə" əsərində rənglərin zənginliyi və dinamik quruluş onu canlı və diqqətçəkən edir. Əsərdə əsasən qırmızı, mavi və ağ rənglər üstünlük təşkil edir. Qırmızı rəng şəhid qanı və mübarizəni, mavi rəng türkçülüyü, ağ rəng isə sülhü və təmizliyi təcəssüm etdirir.

Sakit Məmmədovun "Qarabağnamə" əsəri yalnız bir sənət əsəri deyil, eyni zamanda xalqın qürurunu və gələcəyə olan inamını – ümidini ifadə edən bir salnamədir.

Müzəffər və şanlı ordumuzun Ali Baş Komandanı İlham Əliyev tərəfindən Şuşa şəhərinin işğaldan azad olunması ilə əlaqədar səsləndirdiyi "Əziz Şuşa, sən azadsan!" və mübarizə əzmini özündə əks etdirən "Dəmir yumruq" ifadələri Azərbaycan rəssamlarının əsərlərində özünəməxsus forma-biçimdə bədii təcəssümünü tapıb.

Xalq rəssamı Arif Əzizin "Əziz Şuşa, sən azadsan!" (2020), Əməkdar rəssam Vüqar Əlinin "Zəfər" (2020), Samir Qafarovun "Dəmir yumruq" (2021), İntiqam Cəfərovun "Tarixi zəfərimiz" (2021) və s. əsərləri vurğulaya bilərik. Qeyd olunan bu əsərlərdə əks olunmuş "Dəmir yumruq" obrazı işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda öz canlarını fəda etməyə hazır olan xalqımızın mübarizə əzmi, qələbə ruhiyyəsi heç vaxt hafizələrdən silinməyəcək bir şəkildə bədii görkəm alıb.

Əməkdar rəssam Vüqar Əlinin "Zəfər" (2020) əsəri özünəməxsus bədii həlli ilə seçilir. Ağ at üzərində olan əsgər qalibiyyəti – zəfəri simvolizə edir. Əsərin texniki həlli çırpma üsulu ilə icra olunsa da, fiqurların həllində realizm ənənələri qorunub saxlanılıb. Kompozisiyada əksini tapmış əsgər obrazı hər hansı bir konkret şəxsə həsr olunmayıb. Burada at üzərində qələbə rəmzini ifadə edən "dəmir yumruq"lu bir əsgərin ümumiləşdirilmiş obrazı canlandırılıb.

Əsərin yaranma prosesində rəssamın gözü önündə həmin zamanlarda ön cəbhədə şücaət göstərmiş bir çox qəhrəmanlarımızın obrazı canlanırdı. Lakin son anda yaranmış obrazın simasında müəyyən qədər Milli qəhrəman, general Polad Həşimova bənzər bir obraz yaradıldı. Odur ki, zəfəri simvolizə edən bu ümumiləşdirilmiş qəhrəman obrazı general Polad Həşimovun simasında bütün

vətənsevər insanlarımıza – məğrur və cəsarətli Qarabağ qazilərimizə, şəhidlərimizə ithaf olunub. Texnologiyasına görə çırpma üsulu ilə çəkilsə də əsərin kompozisiya həllində anatomik qanunlara tamamilə riayət olunub. Əsərin kompozisiya həlli Azərbaycan bayrağının rəngləri fonunda icra edilib. Realist səpgidə işlənilsə də, əsərdə müəyyən mənada dekorativlik də müşahidə olunur. Bu əsərin səciyyəvi xüsusiyyətlərindən biri də onun yaranma prosesinin anidən baş verməsi və eskizsiz ərsəyə gəlməsidir.




**Arif Əziz. "Əziz Şuşa, sən azadsan!". 2020.**
**Kətan, akril. 100x120 sm. Şəxsi kolleksiya.**



**Vüqar Əli. "Zəfər". 2020.**
**Kətan, yağlı boya / akril. 90x130 sm. Şəxsi kolleksiya.**

Elşən Hacızadənin "Qələbəmiz" (2020), Samir Qafarovun "Dəmir yumruq" (2021), Vüqar Əlinin "Zəfərin halallığı" (triptix, 2020), Mir Azər Abdullayevin "Qalib" (2020) və "İrəli" (2020), İntiqam Cəfərovun "Tarixi zəfərimiz" (2021) əsərləri məzmunun nikbinliyi və koloritin milliliyi ilə diqqətçəkəndir. Sözügedən bu əsərlərdə rənglərə hopmuş tarixi həqiqətlər olduqca inandırıcı görünürlər.

**Nəticə.** Rəssamlarımızın nümayiş etdirdikləri bu əsərlər bir daha göstərdi ki, fırça və tişə ustalarının Qarabağa və onun uğrunda şəhid olanların xatirəsinə ehtiramı ölçüyəgəlməzdir. Eyni zamanda bu əsərləri "Zəfər günü"nə həsr edilmiş ən yaddaqalan bədii münasibət saymaq olar. Beləliklə, müasir dövr Azərbaycan rəngkarlığında Zəfər mövzusu, xalqın tarixini, mübarizə əzmini və qələbəsini əks etdirən bir sərhəd kimi ön plana çıxır. Rəssamlar, bu mövzuda yaratdıqları əsərlərlə, yalnız bədii obraz yaratmır, eyni zamanda tariximizin unudulmaz anlarını, qürur və sevinc dolu xatirələrini yaşadırlar.

## Ədəbiyyat siyahısı

1. Əliyev Z. (20 noyabr, 2020). Qarabağ savaşı qaliblərinin tərənnümü // “Mədəniyyət” qəzeti, Bakı, S.7.

2. Quliyev R. (2013). Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı: Letterpress.

3. Müasir dövrdə Azərbaycan təsviri sənətinin rolu və yeri. URL: https://azerbaijan.az/related-information/176

4. Quliyev Ə. (18.11.2021). Sakit Məmmədovun “Qarabağnaməsi”. URL: https://525.az/news/180367-sakit-memmedovun-qarabagnamesi

5. Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Zəfər Gününə həsr edilmiş “Qarabağnamə” əsərinin təqdimatı olub. URL: https://azertag.az/xeber/yeni_azerbaycan_partiyasinin_teskilatchiligi_ile_zefer_gunune_hesr_edilmis_qarabagname_eserinin_teqdimati_olub-1918754

6. Azər Turan. (08.11.2021). Sakit Məmmədovun Qarabağ apofeozu – “Qarabağnamə”. URL: https://edebiyyatqazeti.az/news/incesenet/8089-sakit-memmedovun-qarabag-apofeozu-qarabagname

**Aynur Sakit qizi**

## The Theme of “Victory” in Contemporary Azerbaijani Painting

### Summary

The article is dedicated to the theme of “victory” in contemporary Azerbaijan painting. In our modern era, the theme of victory is one of the most relevant topics that demonstrates the fighting determination and spirit of victory of our people. Inspired by the joy experienced by our victorious country and heroic people after the 44-day Second Karabakh War, which ended in victory in 2020, our artists have created interesting works that convey the spirit of victory in interesting and very different forms. Sakit Mammadov’s “Karabaghname” (2020-2021), Arif Aziz’s “Dear Shusha, you are free!” (2020), Elshan Hajizadeh’s “Our Victory” (2020), Vugar Ali’s “Victory” (2020) and “The Righteousness of Victory” (triptych, 2020), Mir Azer Abdullayev’s “The Winner” (2020), Samir Gafarov’s “Iron Fist” (2021), Intigam Jafarov’s “Our

Historical Victory" (2021), etc. works are precisely these types of victory-themed paintings.

**Key words:** fight, spirit of victory, contemporary, Shusha, heroic people.

**Айнур Сакит кызы Мамедова**

**Современная эпоха в азербайджанской живописи: Тема "Победа"**

**Резюме**

Статья посвящена теме "Победы" в современной азербайджанской живописи. В наше время тема победы является одной из самых актуальных, символизирующих боевой дух и стремление к победе нашего народа. После успешного завершения 44-дневной Второй Карабахской войны в 2020 году, наши художники создали интересные произведения, отражающие дух победы в самых разных формах и стилях, вдохновленные радостью победы, переживаемой народом и государством. Работы таких художников, как Сакит Мамедов ("Карабахнаме", 2020- 2021), Ариф Азиз ("Дорогая Шуша, ты свободна!", 2020), Эльшан Хаджизаде ("Наша победа", 2020), Вугар Али ("Победа", 2020) и "Чистота победы" (триптих, 2020), Мир Азер Абдуллаев ("Победитель", 2020), Самир Гафаров ("Железный кулак", 2021), Интигам Джафаров ("Наша историческая победа", 2021) и другие произведения являются яркими примерами живописи на тему победы.

**Ключевые слова:** современная эпоха, Азербайджан, живопись, Карабах, победа.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 10.02.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 21.05.2025***
***Ekspert rəyi: Aslan Xəlilov***